2021-2022-ci tədris ili üçün peşə təhsil müəssisələrinə mərkəzləşdirilmiş qaydada həyata keçirilən müəllim və istehsalat təlimi ustalarının işə qəbulunun nəticələri açıqlanıb.

Müsabiqə çərçivəsində respublika üzrə 65 ixtisas fənn müəllimi və 131 istehsalat təlimi ustası vakansiyası elan olunub. Ümumilikdə 130 şəxs müsabiqəni uğurla tamamlayıb və işlə təmin olunub. Namizədlərin vakant yerlərə yerləşdirilməsi elektron ərizələrində qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılıb. Nəticələr ilə bağlı namizədlərə SMS bildirişi göndərilib, həmçinin şəxsi səhifələrində müvafiq məlumatlar yer alıb.

Uğurlu nəticə göstərən namizədlər sənədlərini qəbul olduqlarını peşə təhsil müəssisəsinə 15 oktyabr tarixinədək təqdim etməlidirlər.

Peşə təhsil müəssisələrinə müəllim və istehsalat təlimi ustalarının işə qəbulunun müsahibə mərhələsinin cari tədris ili ərzində keçirilməsi nəzərdə tutulur. Müsahibə mərhələsi uğurlu namizədlərin iş yerində daimiləşməsinə xidmət edir.